# Ailəsinə və xalqına bağışlanan zəngin irs

## 26 aprel görkəmli yazıçı, alim və pedaqoq Mir Cəlal Paşayevin doğum günüdür

***Ədəbi irsi həmişə müasir olan görkəmli yazıçı və pedaqoq, filologiya elmləri doktoru Mir Cəlal Paşayevin əsərləri insanların qəlbinə asanlıqla yol tapmışdır. Sadəlik, ideya saflığı, yığcamlıq, sənətkar müşahidəsinin dərinliyi, yazıçı mədəniyyətinin yüksəkliyi, həyati motivlərin zənginliyi, yeri gələndə, hadisələrin duzlu yumor və satiranın hədəfinə çevrilməsi ədibin yaradıcılığını müxtəlif dilli geniş xalq kütlələrinə sevdirmişdir. Yazıçı halal və parlaq əqidəli sadə insanları, bəşəriyyətin böyük zəka sahiblərini məhəbbət və ehtiramla tərənnüm etdiyi kimi, saxtakar və riyakarlara, millətin və cəmiyyətin inkişafına maneçilik törədən ünsürlərə qarşı nifrət və barışmazlığını heç vaxt gizlətməmişdir.***



Mir Cəlalın əsərləri ilə yaxından tanış olanlar bilirlər ki, ədibin yaradıcılığında hekayələrin xüsusi yeri vardır. Ədəbiyyatımızda elə bir sənətkar tanınmır ki, o, bu sahədə Mir Cəlal qədər səmərəli fəaliyyət göstərmiş olsun. Unudulmaz Süleyman Rəhimov haqlı olaraq qeyd edirdi ki, Azərbaycan sovet ədəbiyyatında hekayənəvislikdə Mir Cəlal bir dünya iş görübdür. Əlbəttə, fikirdəki sovet sözünə də tarixi reallıq müstəvisində yanaşmalıyıq. Reallıq baxımından bir faktı xatırlatmaq istərdim. O dövrdə sovet mətbuatının bayraqdarı olan " Pravda" qəzeti 7 sentyabr 1987-ci il tarixli nömrəsində yazırdı: "SSRİ ölkəmizdəki xalqların siyasi ittifaqıdır. Kiçik Vətənini, öz milli kökünü, milli mədəniyyətini dərk etmədən böyük Vətən barədə düşünmək ən azı qansızlıq və nankorluqdur." Bu, həm də o demək idi ki, həmin dövrdə hər bir insanımızın-fəhlənin də, kolxozçunun da, memarın da, həkimin də, bəstəkarın da, müğənninin də, müəllimin də, yazıçının da, şairin də fəaliyyət yeri-zavod, tarla, tikinti obyekti, xəstəxana, səhnə, məktəb, kitab böyük Vətənin bir parçası idi. Əsl vətəndaşlığın təsdiq edilməsi üçün meydan idi. Hər şey, elə vətəndaşlığın özü də kökdən başlayırdı. Mir Cəlal üçün xalqının öz kökü, öz mədəniyyəti Ana dilindən, ana laylasından və torpağa bağlılığından başlayırdı.

Mir Cəlal əlinə qələm alan gündən insanları həmişə təmizliyə, xeyirxahlığa çağırmışdır. Onun yaradıcılığında qeyd etdiyim kimi, hər şey aydın və sadədir. Hər şey həyatda olduğu tək təbiidir. O, həqiqi istedad sahibi kimi insan təbiətində yaxşını da, pisi də olduğu kimi görür, duyur, həmişə də yaxşının tərəfində durur, yaxşının qələbəsinə inanırdı.

**Mir Cəlal öz xeyrini xalqın xeyrindən ayırmayan, xalqının taleyinə bağlı olan əsl insana qarşı nə qədər mehriban idisə, cəmiyyətin inkişafına mane olan tüfeylilərə qarşı bir o qədər amansız idi. Beləliklə də onun maraqlı surətlər silsiləsi yaranırdı. Yazıçı hadisələri sadə detallar, ədəbi vasitələrlə təqdim etməyi sevirdi. Bu xüsusiyyətlər ona sanki sevimli sələflərimiz Mirzə Ələkbər Sabir, Cəlil Məmmədquluzadə, özünün " yeriyən Azərbaycan " adlandırdığı Əbdürrəhimbəy Haqverdiyevdən keçmişdi. Mir Cəlal bu mütərəqqi fikir sahiblərimizin ənənələrini bacarıqla davam etdirirdi.**

1947-ci ildə "Drujba narodov" jurnalının 13-cü nömrəsində "Mir Cəlalın yaradıcılığı haqqında" böyük bir məqalə ilə çıxış edən İ.Sats onun milli dəyərlərə və klassik ənənələrə qəlbən bağlı olduğunu düzgün duyub yazmışdı: "Xüsusi tədqiqat şübhəsiz ki, Mir Cəlalın klassik Azərbaycan ədəbiyyatı və onun xalq mənbələri ilə əlaqəsini göstərə bilər. Bu, onun sənətində qüvvətli cəhətdir."

Onun fəaliyyəti çoxlarına maraqlı idi. "Necə oldu ki, mən yazıçılığa başladım?" sualına Mir Cəlal belə cavab vermişdi : "1926-1927-ci illərdə pedaqoji texnikumun son sinfində oxuyanda mərkəzi qəzetləri, xüsusən "Gənc işçi"ni müntəzəm mütaliə edir, özüm də arabir məqalələr yazırdım. "Gənc işçi"də rast gəldiyim ədəbiyyat səhifələri məni çox maraqlandırırdı. Mən istəyirdim ora da yazım. Bir neçə şeir qaralayıb, poçt ilə göndərdim, cavab çıxmadı...



Bir dəfə Mayakovskinin "Zərbəçi marşı" adlı şeiri əlimə keçdi, onu oxudum və nədənsə, tərcümə etmək fikrinə düşdüm. Başladım şeiri qafiyyələməyə. Bir həftə sonra " Gənc işçi" nin ədəbiyyat səhifəsində mənim " Zərbəçi marşı" adlı tərcümə şeirim çıxdı. Bu, mənim mərkəzi mətbuatda ilk yazım idi."

Ədəbi fəaliyyətinin ilk bəhrəsini görən gənc ədəbiyyatsevərin yazıb-yaratmaq həvəsi daha da artır, müəllimlərindən kömək almağa ehtiyac duyurdu. Ədib sonrakı xatirəsində bu barədə yazırdı: "Mənim yazı ilə məşğul olduğumu görən müəllim dostlarım mənə dərin mütaliə zərurətini tapşırdılar. Əlimə keçən kitabları oxuyurdum. 1928-ci ildə Çexovun, M.Qorkinin tərcümə olunmuş hekayələrini alıb oxudum. Bu hekayələr mənə həyat, insan və hadisələr haqqında söylənən sadə nağıl kimi şirin gəldi. "Dəhşətli gecə" və " İtaliya nağılları"nı cibimdə gəzdirdiyim yadımdadır. Bir xanımın evə göndərdiyi almaları yoldaca dalaşdığı uşaqların təpəsinə vuran, sonra da qorxmadan ağasının yanında lovğalanan balaca Pepenin " Alma atışması"nı oxuyanda nə qədər gülmüşdümsə, Çexovun " Vanka" sını oxuyanda da bir o qədər mütəəssir oldum. Vanka Jukovun nainsaf, vicdansız ağa qapısındakı acı həyatı, ağır işdən şikayəti, yalvarışları mənim zehnimi uzun müddət məşğul etmişdi. " Əziz baba, mənə yazığın gəlsin, bədbəxtəm, yetiməm, burada məni döyürlər, doyunca çörək vermirlər, hər gün ağlayıram, gəl məni apar."

Böyük rus pedaqoqu A.S.Makarenko düzgün tərbiyəni bizim xoşbəxt qocalığımız, pis tərbiyəni isə bizim gələcək dərdimiz, bizim gələcək göz yaşlarımız, bizim başqa adamlar qarşısında, bütün ölkə qarşısında təqsirimiz hesab edərək deyirdi: " Valideynlər həmişə, hər şeydən əvvəl bu tərbiyə işinin əhəmiyyətini və həmin iş üçün daşıdıqları böyük məsuliyyəti yadda saxlamalıdırlar." Məntiqi ilə Makarenkonun sözlərini təsdiq edən tanınmış qırğız yazıçısı və ictimai xadimi Çingiz Aytmatovun "İnsanın başqaları üçün görə biləcək ən yaxşı iş öz ailəsində ləyaqətli uşaqlar tərbiyə etməkdir" fikri də sanki Mir Cəlalın arzularından qanadlanmışdı. Yazıçı ağıllı, namuslu, zəhmətkeş, vətənpərvər, mərd övlad yetişdirmək, əsl vətəndaş böyütmək haqqında düşünən, əmək sərf edən ata-anaları, nənə-babaları, müəllim-tərbiyəçiləri əsərlərində dərin məhəbbət və sevgi ilə təsvir edirdi. Ədəbiyyatşünas alim həmişə təbliğ edirdi ki, övlad-valideyn arasındakı qarşılıqlı münasibət hər şeydən əvvəl möhkəm inama, dərin səmimiyyət və yüksək məhəbbətə əsaslanmalıdır. V.Q Belinskinin dediyi kimi, elə olmalıdır ki, övlad öz qəlbinin ən kiçik arzusunu da ondan gizlətməsin, bir sevinci və ya dərdi olanda, bir yanlış iş tutanda, başına bir pis fikir gələndə ən əvvəl onun yanına gəlsin, ondan məsləhət, kömək, təsəlli umsun.

Yeni insan yetişdirməkdə vacib olan bir çox məsələlər, mənəvi-əxlaqi amillər, valideyn-övlad, müəllim-şagird-tələbə münasibətləri Mir Cəlalın hekayələrində öz ifadəsini geniş əks etdirmişdir. Ailədə bir-birinə ehtiramı, ailə üzvlərinin bir-biri qarşısında məsuliyyət daşımalarını ən nəcib keyfiyyət hesab edən Mir Cəlal, ailəni cəmiyyətlə bağlayan mənəvi əlaqəyə xüsusi diqqət yetirmişdir. Yazıçı dönə-dönə təlqin etmişdir ki, valideynlə övlad arasındakı doğmalıq, məhəbbət duyğuları, övladın ailə qarşısındakı məsuliyyət hissi elə müqəddəs, mənəvi bağlardır ki, bunlara etinasız yanaşmaq olmaz. Qarşılıqlı qayğı hissini dərk etməyən, ata-anaya ehtiram hissini itirən, ləyaqətdən məhrum olan haqsızlar ədibin " Şəxsi məsələ" hekayəsində amansız tənqid atəşinə tutulmuşdur.

**Mir Cəlalın qənaətinə görə,övladın tərbiyəsini başlı-başına buraxmaq, uşağı qayğı və nəvazişdən məhrum etmək nə qədər zərərlidirsə, onu həddindən artıq ərköyün, şıltaq böyütmək bir o qədər faciəlidir. Bu, nəticədə böyüməkdə olan uşağı sərbəst, iradəli olmaq, gələcəkdə həyatın çətinliklərinə dözümlü olub üstün gəlmək, çalışqanlıq, əməksevərlik kimi keyfiyyətlərdən məhrum edir. Yazıçının " Ulduz", " Plovdan sonra", Letun" hekayələrindən meydana gələn nəticə belə bəlalardan ibarətdir. Bu hekayələrdə valideynlərin övladlarla arzuolunmaz münasibətlərini, ziyanlı rəftarını müxtəlif mahiyyətlərdən ifşa edən ədib, oxucu qarşısında əxlaqi nəticələr çıxarır.**

" Əsgər oğlu " hekayəsində qoyulan məsələlər olduqca sadədir. Atası cəbhədə həlak olan Hafiz orta məktəbi müvəffəqiyyətlə bitirb. Moskva universitetinə daxil olmaq istəyir. Hafizin yeganə sevimlisi və təsəllisi olan nənəsi Ehtiyat xala istəkli nəvəsinin qarşısında duran çətinlikləri duyduqca bərk həyəcan keçirir. Əsər bu iki insanın - nənə ilə nəvənin qarşılıqlı sevgisini və həyəcanlarını əks etdirir. Yaş və səviyyəcə ciddi fərqlənsələr də, bir-birini yaxşı başa düşən, duyan, bir-birindən hörmət görən Ehtiyat xala və onun nəvəsi Hafizin simasında yüksək mənəvi-əxlaqi ləyaqət, məsuliyyət hissinin dərinliyi, nənə-nəvə münasibətinin gözəlliyini görürük. Əsərdə eyni zamanda elmin və maarifin böyük əhəmiyyətindən bəhs edilir. Hekayədə Hafizin imtahan ərəfəsində keçirdiyi həyəcan və hisslərini, Ehtiyat xalanın incə nəvazişlərini, qayğıkeşliyini və mülayim rəftarını təsvir edən səhnələr şövqlə yazılmışdır.

**Məlumdur ki, hekayə janrında ustalıq, məharət, süjet qurmağı bacarmaq əsas şərtlərdən olub, müəllifdən xüsusi qabiliyyət tələb edur. "Əsgər oğlu" hekayəsi təsdiq edir ki, Mir Cəlal hekayə üçün zəruri olan əsas cəhətlərə diqqət yetirmişdir. Hadisələrin başlanğıcı, inkişafı əsərdə qoyulan ana xətlə möhkəm birləşdirilmiş, tədricən təbii bir yolla inkişaf etdirilmişdir. Nənə-nəvə münasibətindəki səmimiyyət, qayğıkeşlik və həssaslıq ədibin " Naxış", " Ehtiram" kimi hekayələrində də əksini tapmışdır.**

Şifahi xalq ədəbiyyatımızın, xüsusən nağıllarımızın əksəriyyətinin ideya məzmunu halallıq təlqin edir, ədalət qanunlarından, düzlükdən söhbət açır. Halal tikənin şirinliyi, xeyirin şər üzərində qələbəsi barədə çox oxuyub , çox eşitmişik. Xalq ruhu, xalq ədəbiyyatı millətimizi belə tərbiyə edib. Mir Cəlalın daxili aləmi, zəngin mənəviyyatı da belə dəyərlərdən qaynaqlanmışdı. Amma təəssüflə qeyd etmək istərdim ki, tariximizin bütün dövrlərində, o cümlədən Mir Cəlalın da yaşadığı cəmiyyətdə halal-haram meyarlarını dolaşdıranlar az olmamışdı. Bu da bir həqiqətdir ki, heç kim övladını əliəyri, yalançı, namərd görmək istəməz. Lakin övlad üçün, uşaq üçün atanın sözləri yox, əməlləri daha unudulmaz olur. Ata əyri yolla qazandığı pulu evə gətirib halallıqdan nə qədər danışsa da, uşaq həyat dərsini atanın əməlindən alacaqdır. Atanın ikiüzlülüyü, sözü ilə əməlinin ikiliyi övlada da sirayət edir. Vicdanı pak uşaq belə ikiləşmə mühitində böyüyürsə, onun gələcəkdə təmiz olacağına kim zəmanət verə bilər? Belə məsələlər yazıçını daim düşündürürdü.

Mir Cəlal cəmiyyətə və xalqa səviyyəli övlad tərbiyə etməyi həmişə böyük, nəcib və məsuliyyətli iş hesab etmişdir. Buna görə də yazıçı, tərbiyə işinə laqeyd yanaşanlara, övlad-valideyn münasibətlərini yarıtmaz hala salanlara, müqəddəs ailə dəyərlərinə xələl gətirənlərə qarşı sərt mövqedə olmuşdur.

Bədii ustalıq və realizmin dərinliyi " Ulduz" hekayəsində də özünü göstərir. Əgər " Əsgər oğlu"nda nənə ilə nəvənin mehriban rəftarı, övladın təlim-tərbiyəsi haqqında düşünən saf ürəkli bir ananın ( nənənin) ürək çırpıntıları təsvir olunursa, " Ulduz" da ailənin qədrini bilməyən, atalıq hissindən məhrum olan daşürəkli, məsuliyyətsiz bir atanın faciəsi, mənəvi iztirabları nifrətlə təqdim olunmuşdur.

Qələndər Qələndərov tez-tez arvad alıb - boşamaqla məşğuldur. Mənəviyyatsızlıqla yalnız özünü düşünən bu adam belə hesab edir ki, yaşamağın mənası sərbəstlikdə, kefdə, eyş-işrətdədir. Qələndərovun qəlbində bir boşluq, soyuqluq, laqeydlik vardır. Körpə ikən anasını itirən, həyatda köməksiz qalan, səkkiz il uşaq evində yaşayan oğlu Ulduzun taleyi doğma atasını əsla maraqlandırmır. Uşaq evindən sonra atasının yanına gətirildikdən sonra da ondan heç bir qayğı və nəvaziş görməyən Ulduz, bu nadan atanın çirkin əməllərinin qurbanı olur. Evdə ürəyi sıxılan, iztirab və məşəqqətlərə məruz qalan, atadan quru və soyuq rəftar görən, analığından acı sözlər eşidən tifil, doğma evlərini tərk edib sənət məktəbinə daxil olur. Bu atalı yetimin taleyi ilə bütün sənət məktəbinin kollektivi məşğul olur. Olduqca maraqlı və aktual mövzuda yazılmış bu hekayənin tərbiyəvi əhəmiyyəti böyükdür. Qələndərov və onun kimilərini kəskin tənqid atəşinə tutan Mir Cəlalın " Ulduz" hekayəsi bu gün də məişətimizdə təsadüf olunan belə mənfi və yaramaz hallara qarşı mübarizədə güclü və mənəvi silahdır.

Mir Cəlal qəhrəmanlarını cinsinə görə ayırmırdı. Əgər davranış normalarında qüsuru varsa, nəzakət qaydalarına riayət etmirsə, həyata baxışlarda səhvlərə yol verirsə, həmin qadın mütləq Mir Cəlalın tənqid hədəfinə tuş gəlirdi." Səyyah xanım" adlı xatirə hekayəsində məhz Səyyah xanım kimi.

Səyahət zamanı Səyyah xanım hamının işinə qarışır, özünü hər işin ustası, hər yerin bələdçisi kimi aparır. Vətəndaşlara iddialı, hökmlü münasibət bəsləyib yersiz göstərişlər verir. İnsanların heysiyyətinə toxunmaqdan ehtiyat eləmir. Yazıçı, Əjdər adlı mühəndisin qəzəbinə tuş gəlib, müzakirəsi həmkarlar İttifaqı səviyyəsinə qaldırılan Səyyah xanımın düşdüyü vəziyyəti çoxlarına ibrət götürüləsi bir nümunə kimi təqdim edir. Müəllif İttifaq katibinin dili ilə bu cür adamlara əslində öz nəsihətlərini verir: "...Rəftarda, danışıqda, gəzməkdə, oturub-durmaqda, hər addımda nəcabət, həssaslıq! Hər yerdə nəzakət, mərifət! Mərifət insanın naxışıdır. Bizim müasir cəmiyyətimizdə insan ləyaqəti hər şeydən üstün tutulur. Xüsusən Səyyah xanım, qadın xeylağı gərək bunu biləydi, başqalarına nümunə olaydı. Amma çox təəsüf! .."

Mir Cəlal Paşayev ədəbiyyat müəllimi idi. Eyni zamanda da ədəbi həyatın müəllimi. Ədəbiyyatla ədəbi həyat isə bir-biri ilə sıx bağlıdır. Onu ən çox düşündürən məsələlərdən biri də insanların bir-birinə münasibəti, bir-birinin güzəranına, taleyinə, kədər və sevincinə səmimi hisslərlə yanaşması, mərasinlərdə, məclislərdə, qonaq, kütlə qarşısında nəzakətli davranış qaydalarının hakim olması, bir sözlə, ədəbi həyatın bütün normalarının qorunması idi.

Götürək elə toylarımızdan. Bilirik ki, toy büsatı insan həyatında ən gözəl və unudulmaz hadisədir. Toy - iki gəncin bir-birinə qovuşması, onlar üçün yeni dövrün başlanğıcı, xoşbəxt ailə qurmaq şadyanalığıdır. Toy məclisi insanlar arasında bir ülfət, ünsiyyət yaradan gözəl adətlərdən biridir. Dədə-babalarımızdan yadigar qalan ənənəyə, milli adətimizə - toya hörmət edilməsi, bu ehtiramın işığında toy əhlinə yüksək mənəvi zövq aşılanması, yazıçının nəsillərə nümunə olası xoşməramlı arzuları idi. Bununla belə, gördüyü nöqsanlara, eybəcərliklərə də ədib bir həyat pedaqoqu kimi göz yuma bilməzdi. Mir Cəlal "Təzə toyun nəzakət qaydaları"nı sanki bugünümüz üçün yazmışdı. Lakin hekayədə məqsəd heç də bizim toy adətlərinin tənqidi deyil, bu adətləri saxtalaşdıran, bayağılaşdıran, toyu qazanc mənbəyinə çevirən nəzakətsizliyi ifşa etməkdir. Toy əhlinin əksəriyyəti buradakı zinəti, lüzumsuz israf olunan pulları saxta yollarla əldə etdikləri, şərəflə, zəhmətlə qazanmadıqları üçün günahkardırlar. Toya gətirilən hədiyyələrin qiyməti hesablanarkən ev sahibinin əsəbiləşməsi, ucuz hədiyyə gətirənləri söyməsi ikrah və nifrət doğurur. Çünki belə mənsəbpərəstlər dostluğu adamların sədaqətində, xeyirxahlığında deyil, qarşı tərəfə nə qədər mənfəət verə biləcəyində axtarırlar:"...Bibim səliqə ilə şeylərin qulağından tutub deyirdi:

- Bu şalı Məmmədin arvadı gətirib. Altı dənə qaşıq, isbatlı şeydir, Minaxanım alıb. Bəzək qutusu, əcəbdir! işinin adına layiq. Məşədi Rəhimi deyirəm ey!

Bibim sovqatı əlində saxlayır, bəyin fikrini bildikdən sonra kənara qoyurdu. Bəy əvvəl mülayim görünür və deyirdi:

-Xub...Pis deyil...-Sonra: -Zarafat deyil! Ərinə çörək ağacı düzəltmişəm, hələ o çoxdur? Öt!

Bibim bir kağız gül göstərdi:

-Bu da,-dedi,- dostun Əyyubgildəndir.

Bəy mızıldandı:

-Elə dostu qəbrə qoyum! Heç utanmır da!

Bibim bir cüt corabı göstərdi:

-Bunu Həmzət gətirib.

-Kim?

-Mirsaadın arvadı, Həmzət!

-Çox qələt eləyib, gətirib! Sən də çox qələt eləyib, almısan! Məni ələ salıb, ya özünü? Qızı küçükləyəndə mən onu adam bilib, subaylığım ilə qırx manat xərcə düşdüm.İndi mənim əziz günümdə kimə doqquzluq qoyur? Dur, apar, ar üstünə, gəl! Hələ o qədər ac qalmamışıq. İt uşağı! Corab! Özü də nə corab!.."



**Mir Cəlal xüsusi təhlilə ehtiyacı olmayan "Az danışmağın faydası"nda hekayənin başlanğıcından oxucunu necə güldürürsə, bir o qədər də düşündürür: "Sədidən soruşdular ki, ədəbi kimdən öyrəndin, dedi- biədəbdən. Məndən soruşdular ki,az danışmağı kimdən öyrəndin, deyirəm- çox danışandan.**

Doğrudan belədir. Uzunçuların yanında oturub-durmaq məni təngə gətirdi. Mənim Dilan adlı bir yoldaşım var. Çənədən pərgardır. Bir nağıl ki, başladı, səni yuxuya verməmiş əl çəkməz. Deyəsən hər səhər bal halvası yeyir. Çənəsi həmişə işdədir. Atası da onun hap-gopundan bezib. Elə olur ki, Dilan danışır, sən gedib öl-üzünü yuyub gəlirsən, ya bəlkə də çimib gəlirsən, ya dişini çəkdirib gəlirsən, görürsən ki, hərif danışır. Dinləyən var, ya yoxdur, Dilan üçün birdir. Özünün də, sözünün də halına təvavüt eləmir. Gəlib görürsən həmin ahəng, həmin mətləb, həmin söz..."

Mir Cəlalın hekayələri üslubuna görə iki yerə bölünür: Satirik və lirik hekayələr. Satirik üslubda yazdığı hekayələri - "İstifadə"də meşşan əxlaqı və həyat tərzi, "Badam ağacları"nda imperializmin müstəmləkəçilik siyasəti, " Dissertasiya"da laqeyd və məsuliyyətsiz həkimlər," Bostan oğrusu"nda xain və xəbislər, "Tövbələtmə"də içki düşkünləri, "Hesab dostları"nda özünə arxa axtaranlar, "İclas qurusu"nda iclasbazlar, " O yana bax"da "novator" sənətkarlar, "Plovdan sonra"da övladını mənən şikəst edən valideynlər və s. nöqsanlar, mənfi hallar güclü sənətkar qələminə hədəf olmuşdur. Belə tənqidlərlə bərabər, Mir Cəlal vətəndaş bir sənətkar kimi insanların mənəvi gözəlliklərindən, onların qurub-yaratmaq eşqindən, saf arzu və əməllərindən fərəhlə danışmışdır. "Söyüd kölgəsi"ndə həyatda yaxşı bir iz qoyub getmək arzusu ilə yaşayanlardan," İnsanlıq fəlsəfəsi"ndə özlərinə zəhmətlə abidə ucaldanlardan, " Nazik mətləb" də insanlıq ləyaqətini hər şeydən uca tutanlardan və adamlarımızın digər mənəvi keyfiyyətlərindən hərarətlə söhbət açmışdır. Ədibin " Bir gəncin manifesti", "Yaşıdlar", "Dirilən adam", "Müasirlər", "Açıq kitab", " Yeni şəhər", " Sağlam yollarda" və s. adlı roman və povestləri ilə bərabər, bu hekayələri oxuduqca, düşünürdüm ki, doğrudan da ədəbiyyata cəmiyyətin güzgüsü kimi dəyər verənlər yanılmayıblar. Ədəbiyyat həqiqətən qüdrətli tərbiyə vasitəsidir; o, insanın dünyagörüşünün, həyat ideologiyasının, mənəvi aləminin formalaşdırılmasında, bir vətəndaş kimi yetişməsində geniş imkanlara malikdir. Ədəbiyyatı "həyat dərsliyi" adlandıranlar da həqiqi fikirdədir. Müəllim də tərbiyə edir, yazıçı da. Lakin onların hər biri özünəməxsus vasitələrdən istifadə edir. Müəllimin sözü bilavasitə uşaq, yeniyetmə şüuruna təsir edirsə, bədii ədəbiyyat öz canlı obrazları ilə daha çox qəlbə nüfuz edir, onun vasitəsilə də şüura təsir göstərir. Əgər Mir Cəlalın həm müəllim kimi, həm də ədəbiyyatşünas alim, yazıçı kimi funksiyalarını nəzərə alsaq, ədibin necə nəhəng bir zəhmətə qatlaşdığını aydın görərik.

Mir Cəlalın dönə-dönə, sevə-sevə oxuduğum hekayələrində və digər əsərlərində bunları dəfələrlə sezmişəm. Amma xatirə hekayələrindən olan " Ləyaqət " mənə xüsusi təsir göstərib.

Mir Cəlal vaxtilə ilk müdiri olmuş məktəbin 75 illik yubiley tədbirində iştirak etmək üçün həmin məktəbin ilk şagirdlərinin nümayəndəsi - Vahid müəllim, uşaqlıqda birlikdə xoş və ağır günlər keçirdiyi məktəb yoldaşı olmuş, həmin vaxt maarif naziri vəzifəsində işləyən Məmməd Qəmərli ilə dağ kəndlərinin birinə yola düşür. Bəziləri maarif işlərinin qüsurları haqqında nazirin yanında danışmağa ehtiyat etsələr də, Mir Cəlal müəllimlə Məmməd müəllim bir-birini yaxşı tanıdığı və araları açıq olduğundan səmimi şəkildə fikir mübadiləsi aparırlar. Söhbət zamanı Mir Cəlal maraqlı bir hadisəni danışır.

Müharibənin yenicə qurtardığı, 1946-cı və ya 1947-ci illərdə, rayonlarda universitet məzunlarına çox ehtiyac olan bir vaxtda Mir Cəlal.müəllim buraxılış imtahanlarında babat oxuyan oğlan kimi tanıdığı tələbədən imtahan götürür. Oğlan biletdəki suallara cavab verəndə Mir Cəlal müəllim sanki yuxudan ayılan kimi olur. Görür ki, tələbə ədəbi, fəlsəfi mətləblərə yüksək nəzəri səviyyədən, özü də orijinal misal və sübutlarla yanaşır, elmi hökmləri dürüst sayır, qəşəng məntiqlə danışır. Mir Cəlal əlavə suallar verir, onlara da gözəl cavablar alır. Daha da inanır ki, tələbə çox hazırlıqlı, mühakiməli, müasir, əlaçı tələbədir. Bu, onu çox sevindirir. Amma məyus olur ki, niyə bu oğlanı yaxşı tanımayıb, necə olub ki, ilk semestrlərdə tələbə ona orta səviyyəli, birtəhər sürüşüb çulunu sudan çıxaran tələbə kimi təsir bağışlayıb? Ləyaqət adlı tələbə şirin danışdığı yerdə Mir Cəlal müəllim həm də bir dekan kimi yavaşca onun " zaçot kitabçası" nın ilk vərəqlərinə diqqət yetirir. Görsün ki, birinci kursda tələbə ondan nə kimi qiymət alıb. Təəccüblü bir mənzərə görür. Tələbə bütün dərslərindən "əla" almışdı. Bir onun dərsindən başqa. Mir Cəlal müəllim o zaman oğlana " üç " vermişdi. İndiki cavablar isə " üç"ə yox, " beş "dən də yuxarıya layiq idi. Əvvəl fikirləşir ki, " beş "yazsın, getsin, sonra fikirləşir ki, bunun səbəbini öyrənmək lazımdır.

-Birinci kursda sizə neçə vermişdim?

- " Üç "

-Başqa dərslərdən?

-Hamısından "beş".

Mir Cəlal müəllim bir tələbəyə, bir " zaçotka" ya baxır.Tələbə günahı öz boynuna götürür.

-Müəllim, olur də, adam yaxşı hazırlaşınır, proqramı əhatə edə bilmir...

- Bəs nə təhər olub?

-Cavablarım zəif olub.

-Niyə zəif olub?

-Görünür yaxşı hazırlaşa bilməmişəm...

Sonradan təyinat zamanı Mir Cəlal müəllim yenə xoşagəlməz xəbər eşidir. Universitei güc-bəla ilə bitirənlər şəhərdə, texnikumda, orta məktəbdə müəllim qalır, Ləyaqəti ən uzaq kəndlərdən birinə müəllim təyin edirlər, orada da ixtisas dərsi olmadığından, yazıq, aşağı sinifdə məşğələ aparmağa məcbur olur.

ardı səh. 5

